# Qəbələdə Milli Mətbuatımızın 140 illiyi qeyd olunub

**Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin milli mətbuatımızın 140 illik yubileyinin keçirilməsi haqqında Sərəncama uyğun olaraq bu gün Qəbələdə mətbuat nümayəndələrinin və rayon ictimaiyyətinin iştirakı ilə regional konfrans keçirilib. Azərbaycan Respublikası Prezidenti Administrasiyasının ictimai-siyasi məsələlər şöbəsinin müdir müavini Ərəstun Mehdiyev, Kütləvi İnformasiya Vasitələrinə Dövlət Dəstəyi Fondunun (KİVDF) icraçı direktoru Vüqar Səfərli, Mətbuat Şurasının sədri Əflatun Amaşov, YAP Siyasi Şurasının üzvü, "İki Sahil" qəzetinin baş redaktoru Vüqar Rəhimzadə, "Səs" qəzetinin baş redaktoru Bəhruz Quliyev, "Yeni Azərbaycan" qəzetinin baş redaktoru Hikmət Babaoğlu və mətbuat nümayəndələri öncə müasir Azərbaycan mətbuatının inkişafında böyük xidmətləri olan Ulu Öndər Heydər Əliyevin abidəsini ziyarət edərək, önünə gül dəstələri düzüblər.**



Konfransı Azərbaycan Respublikası Prezidenti Administrasiyasının ictimai-siyasi məsələlər şöbəsinin müdir müavini Ərəstun Mehdiyev açıb. Sonra sözü Qəbələ rayon icra hakimiyyətinin başçısı Səbuhi Abdullayevə verib. İcra hakimiyyətinin başçısı rayonda görülən işlərdən, regionların iqtisadi inkişafı dövlət proqramının Qəbələnin timsalında çox uğurla həyata keçirilməsindən danışıb. S.Abdullayev milli mətbuatımızın 140 illiyi münasibətilə mətbuat nümayəndələrini təbrik edib.

Konfransda geniş məruzə ilə çıxış edən PA-nın ictimai-siyasi məsələlər şöbəsinin müdir müavini Ərəstun Mehdiyev mətbuatın keçdiyi yoldan, dövlətin mətbuata olan diqqət və qayğısından, görülən işlərdən və qarşıda duran vəzifələrdən danışıb. Ə.Mühdiyev bildirib ki, dövlətimiz müstəqil mətbuatımızın inkişafı, mətbuat qurumlarının maliyyə problemlərinin həlli sahəsində mərhələli fəaliyyət planı hazırlayıb və həyata keçirib.

**Sonra "Yeni Azərbaycan" qəzetinin baş redaktoru Hikmət Babaoğlu məruzə ilə çıxış edib. Baş redaktor Azərbaycan mətbuatının tarixindən danışıb, həmin dövrü geniş təhlil edərək "Əkinçi"nin milli ideyanın, milli şüurun inkişafında rolundan danışıb. H.Babaoğlu Azərbaycan dilinin yaşaması və formalaşmasında mətbuatın rolunu qeyd edib. Baş redaktor çıxışı zamanı diqqəti həm də müasir qəzetçilik və onun inkişafına yönəldib.**